DOI: https://www.doi.org/10.36719/2663-4619/65/261-264

**Emin Teymur oğlu Məmmədov**
Bakı Dövlət Universiteti
magistrant
eminmmdv98@gmail.com

# İNFORMASİYA SİSTEMLƏRİNİN TƏNZİMLƏNMƏSİ ÜZRƏ TƏCRÜBƏ VƏ HÜQUQİ BAZANIN MÜQAYİSƏLİ TƏHLİLİ: MÖVCUD PROBLEMLƏR

***Açar sözlər:*** *informasiya sistemləri, informasiya sistemlərinin tənzimlənməsi, informasiya qanunvericiliyi, milli informasiya siyasəti, milli-hüquqi təcrübə*

## Comparative analysis of experience and legal basis on regulation of information systems: existing problems

**Summary**

Information systems are one of the objects of public relations regulated by information-legal norms. An information system is a regulated set of information technologies and documents. The existence of an appropriate legal framework for the regulation of information systems is important. After gaining independence, one of the main goals and objectives of the state was to form an appropriate legislative framework in this area. The formation and development of information systems is one of the important components of national information policy. This article examines information systems, national legal practice in regulating information systems, comparative analysis of the legal framework as part of national information policy and current issues.

***Key words:*** *information systems, regulation of information systems, information legislation, national information policy, national legal practice*

## Giriş

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə müvafiq olaraq, informasiya sistemi – informasiya texnologiyaları və sənədlərinin təşkilati və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə edilməklə, nizamlanmış məcmusudur. İnformasiya sistemi dedikdə, informasiyanın yaradılması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması zamanı, hesablama və rabitə texnikasını tətbiq etməklə istifadə edilən üsul və vasitələr sistemləri ilə sənədlərin nizamlanmış məcmusu başa düşülür. İnformasiya sistemi informasiya texnologiyaları və sənədlərinin nizamlanmış məcmusudur. İnformasiya sistemi anlayışını formalaşdırmaq üçün bu nizamlanma təşkilati və texniki qaydada olmalı, eyni zamanda hesablama texnikası kimi ənənəvi sınanmış üsullarla yanaşı, digər müasir vasitələrdən istifadə edilməlidir. Kitabxanalar, arxivlər, məlumat bankları və s. özlüyündə ayrıca informasiya sistemləridir, təşkilati - texniki qaydada, müasir texnoloji vasitələrdən istifadə edilməklə informasiya daşıyıcılarının məcmusunu idarə edir. İnformasiya sistemləri qanunvericilikdə müəyyən olunmuş qaydada təşkil olunur, informasiya ehtiyatlarından səmərəli istifadə məqsədilə elmi-texniki və digər informasiya sistemləri, arxivlər, başqa müəssisələrlə birgə fəaliyyət proqramları və müqavilələr əsasında qarşılıqlı əlaqəyə malik olur. (3, s. 232)

İnformasiya sistemlərinin tənzimlənməsi üzrə hüquqi baza və milli təcrübənin öyrənilməsi üçün milli informasiya siyasətinin inkişaf dinamikasına nəzər yetirmək məqsədəuyğun olardı. Azərbaycan Respublikasında milli informasiya siyasətinin həyata keçirilməsində şərti olaraq üç dövr ayırmaq olar: 1) Müstəqillik əldə olunduqdan Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə 2003-2012-ci illər üçün Milli Strategiyanın qəbuluna qədər olan dövr; 2) 2003-cü ildən 2014-cü ilə qədər, yəni Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın qəbuluna qədər olan dövr; 3) 2014-cü ildən bu günə qədər davam edən dövr.

Birinci dövrdə müstəqilliyin yenicə əldə olunduğu bir dönəm olduğu üçün respublika daxilində bütün sahələrdə olduğu kimi, informasiya sahəsində də boşluqlar mövcud idi. Belə bir şəraitdə insan hüquq və azadlıqlarının normal təminatından söhbət gedə bilməzdi. Ona görə də hər şeydən əvvəl, keçmiş SSRİ-nin qalıqlarının təmizlənməsinə xüsusi diqqət ayrılırdı. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə dövlət orqanlarına bu sahədə tapşırıqların verilməsi, senzuranın ləğvi, müvafiq qanunvericilik aktlarının ("Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və s. Azərbaycan Respublikası Qanunlarının) qəbul edilməsi kimi tədbirlər ölkədə məlumat azadlığının təmin olunmasına istiqamətlənmişdi. Tədricən milli layihələr işlənib hazırlanmağa başlandı və bu

layihələrdə İKT-nin tətbiqinə geniş yer verilirdi. Demək olar ki, respublika ərazisini bütünlüklə əhatə edən mobil telefon şəbəkəsi formalaşdırıldı və rabitə kanallarının rəqəmsal rejimə keçirilməsinə dair layihələr işlənib hazırlandı. Lakin bütün bunlara baxmayaraq, respublikada cari vəziyyəti mənfi xarakterizə edən bir çox amillər hökm sürürdü: 1) ölkədə informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə bağlı aparılan işlərin istiqamətlərini və onların prioritetlərini təyin edən, görülən işlərin əlaqələndirilməsini təmin edən məqsədyönlü dövlət siyasətinin hələlik tam müəyyən edilməməsi; 2) informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquqi normativ bazanın tam işlənilməməsi; 3) bir tərəfdən ölkənin keçid iqtisadiyyatı dövrü yaşaması, digər tərəfdən isə Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin 20%-nin işğal olunması nəticəsində bir milyondan çox qaçqının və məcburi köçkünün mövcud olması ilə əlaqədar, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə hökumətin yetərincə maliyyə vəsaitləri ayırmaq imkanlarının olmaması; 4) ölkənin keçid iqtisadiyyatı dövrü yaşaması ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrə "beyin axınının" mövcudluğu; 5) informasiya və kommunikasiya texnologiyalarının imkanları və üstünlükləri barədə geniş əhali kütlələrinin az məlumatlı olması; 6) informasiya və kommunikasiya texnologiyaları sahəsində yüksək səviyyəli mütəxəssislərin çatışmazlığı; 7) ölkə miqyasında kompüterləşdirmənin səviyyəsinin aşağı olması; 8) təhsilin bütün səviyyələrində informasiya və kommunikasiya texnologiyaları ilə əlaqədar olan fənlərin tədrisinin müasir dövrün tələblərinə cavab verməməsi; 9) informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsinə görə şəhər və rayonlar arasında kəskin fərqin olması; 10) Azərbaycan dilinin informasiya və kommunikasiya texnologiyaları sahəsində geniş istifadə olunmasında ciddi problemlərin olması; 11) İKT sahəsində Azərbaycan dilində ədəbiyyatın azlığı; 12) ümummilli informasiya resurslarının formalaşması prosesinin həddən artıq ləng getməsi; 13) Respublikanın informasiya və kommunikasiya texnologiyaları sahəsində bir çox beynəlxalq inteqrasiya yönümlü layihələrdə fəal iştirak etməməsi; 14) Respublikada qüvvədə olan telekommunikasiya tariflərinin informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə maneələr yaratması; 15) telekommunikasiya sahəsində innovasiyaların tətbiqini ləngidən və azad rəqabətə mane olan dövlət inhisarının mövcudluğu. (1)

Sadalanan bütün bu problemlərin aradan qaldırılması məqsədilə 2003-2012-ci illər üzrə Milli Strategiyanın Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunması əsas etibarilə, ikinci mərhələnin başlanğıcı oldu. Bununla da, ölkə daxilində milli informasiya siyasətinin əsas istiqamətləri sürətlə icra olunmağa başlandı. Bu Strategiyada əks olunan məqsəd və vəzifələr, habelə prioritet istiqamətlər "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" və "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) nəzərdə tutulmuş tədbirlərlə ardıcıl şəkildə həyat keçirildi. Üçüncü mərhələdə artıq formalaşmış informasiya cəmiyyətinin daha da inkişaf etdirilməsi və müasir vətəndaşın cəmiyyətin aktiv üzvünə çevrilməsi müşahidə olunur. 2014-2020-ci illər üçün Milli Strategiya və onun icrası üçün qəbul edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı" mərhələlərlə icra olunmaqda davam edir.

Milli Strategiyaların informasiya sahəsində qanunlarla müqayisəsinə əsasən, belə bir nəticəyə gəlmək olar ki, Strategiyalarda müəyyən edilən fəaliyyət istiqamətləri "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində nəzərdə tutulan dövlət siyasətinin əsas istiqamətləri ilə uzlaşır. Bu istiqamətlərdən bir neçəsinə ayrı-ayrılıqda nəzər yetirmək məqsədəmüvafiqdir.

*Milli informasiya fəzasının və milli informasiya ehtiyatlarının formalaşdırılması.* Milli informasiya fəzası (məkanı) dedikdə, informasiya ehtiyatlarının, informasiya sistemlərinin və informasiya texnologiyalarının, habelə bütövlükdə informasiya infrastrukturunun məcmusu başa düşülür. Mülkiyyət və ya məkan xüsusiyyətlərinə görə dövlət orqanlarının informasiya sistemləri (onların mülkiyyətində olan informasiya ehtiyatları, proqram-texniki, şəbəkə və idarəetmə vasitələri, informasiya xidmətləri və s.), özəl müəssisələrin informasiya sistemləri, ictimai təşkilatların informasiya sistemləri, ayrı-ayrı şəxslərin informasiya ehtiyatları və s. fərqləndirilir. Təyinat sahəsi xüsusiyyətlərinə görə milli informasiya məkanında: elm, təhsil və mədəniyyət; maliyyə və iqtisadiyyat; səhiyyə və ekologiya; rabitə və nəqliyyat; sənaye, tikinti və aqrar təsərrüfat; hüquq-mühafizə, hərbi və s. tərkib elementləri ayrılır. Zaman xüsusiyyətlərinə görə aktual və arxiv informasiya sistemləri olur. Daxil olma növünə, mühafizə və ya hüquqi rejiminə görə milli informasiya məkanında açıq və qapalı informasiya sistemləri fərqlənir. (2, s. 71-72)

2003-2012-ci illər üçün Milli Strategiyada milli informasiya ehtiyatları istiqaməti üzrə nəzərdə tutulan bütün tədbirlər milli informasiya məkanının formalaşdırılması məqsədilə müəyyən olunmuşdur: 1) vahid milli elektron informasiya məkanının formalaşdırılması; 2) elektron informasiya məkanında Azərbaycan dilinin geniş istifadəsinin təmin olunması; 3) milli tarixi, ədəbi və mədəni irsin qorunub saxlanması və təbliğində, o cümlədən kitabxana, muzey və arxiv işlərində informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq olunması; 4) milli azlıqların mədəni inkişafına xidmət edən informasiya resurslarının formalaşdırılmasına şərait yaradılması; 5) milli informasiya resurslarının beynəlxalq aləmə çatdırılması üçün onların ümumdünya elektron informasiya

məkanına inteqrasiyası; 6) Azərbaycan diasporuna elektron informasiya dəstəyinin təmin olunması; 7) internetin Azərbaycan seqmentinin genişləndirilməsi, milli axtarış saytlarının inkişaf etdirilməsi; 8) Azərbaycan dilli proqram təminatının yaradılması və inkişaf etdirilməsi.

*Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların hüquqlarının təmin olunması, habelə onların müvafiq informasiya ilə təmin olunması üçün şərait yaradılması.* İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə təhsilin təkmilləşdirilməsi, İKT sahəsində milli kadrların hazırlanması və ölkədə minimal İKT savadlılığının təmin olunması, informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə sosial yönümlü sahələrin inkişaf etdirilməsi, elektron hökumətin formalaşdırılması və inkişaf etdirilməsi kimi istiqamətlər informasiya cəmiyyətinin qurulduğu ilkin dövrlərdə cəmiyyət üzvlərinin aktivliyini artırmaq məqsədi daşıyırdı (2003-2012-ci illər üçün Milli Strategiya). Sonradan 2014-2020-ci illər üçün Milli Strategiyada öz əksini tapmış e-təhsil, e-səhiyyə, e-vətəndaş istiqamətləri bilavasitə insanların müxtəlif sahələr üzrə hüquqlarının təminatına yönəlmişdir.

*İnformasiya iqtisadiyyatının inkişaf etdirilməsi.* İnformasiya sahəsində dövlət siyasətinin istiqamətləri sırasında informasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyətin bütün formalarının inkişafına, informasiya məhsulları və xidmətləri bazarının formalaşmasına yardım edilməsi, informasiya məhsulları və xidmətləri bazarında informasiya münasibətlərinin subyektləri, o cümlədən xarici subyektlər tərəfindən inhisar fəaliyyəti və haqsız rəqabətin qarşısının alınması və yol verilməməsi xüsusi mövqeyə malikdir çünki yalnız azad bazar rəqabətinin olduğu bir şəraitdə informasiya sahəsinin inkişaf etdirilməsi real ola bilər. Ona görə də 2003-2012-ci illər üçün Milli Strategiya elektron iqtisadiyyat istiqaməti üzrə elektron ticarətin həyata keçirilməsi, elektron ödənişlərin geniş miqyasda istifadəsi üçün əlverişli şəraitin yaradılması, informasiya xidmətləri sahəsinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunmasının stimullaşdırılması və biliklərə əsaslanan iqtisadiyyata keçid üçün şəraitin yaradılması tədbirlərinin icrasını zərurət kimi müəyyənləşdirir.

*İnformasiya sahəsində dövlət siyasətində elmi inkişafa üstünlük verilməsi.* İnformasiyalaşdırma mühitində elmi-texniki və istehsal siyasətinin formalaşdırılması və həyata keçirilməsi, habelə informasiyalaşdırma layihələri və proqramlarının dəstəklənməsi, onların işlənməsi və həyata keçirilməsi üçün investisiyaların cəlb olunması sisteminin və stimullaşdırma mexanizminin yaradılması istiqamətləri müvafiq qanunun 3-cü maddəsində əks olunmuşdur. Bunun əsasında Strategiyalarda elmi-texniki və istehsalat potensialının yüksəldilməsinə, yüksək texnologiyalar üzrə elmi-texniki potensialın gücləndirilməsinə, o cümlədən kadr hazırlığına yönəlmiş fəaliyyət istiqamətləri üzrə tədbirlər planlaşdırılmışdır. Müasir dünyada rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına arxalanmaq lazımdır. Elmtutumlu informasiyanın yaradılması, əldə edilməsi, istehsal prosesinə praktik tətbiqi təkcə sosial-iqtisadi inkişafın deyil, həm də qlobal rəqabətin mühüm şərtidir. İnformasiya cəmiyyətinin əsas kapitalı bilik, informasiya və bu informasiyanın daşıyıcısı olan şəxs olub, yeni keyfiyyətli biliyə əsaslanan iqtisadiyyatın yaranmasını, mükəmməl innovasiya siyasətinin həyata keçirilməsini tələb edir. (5, s. 129-130)

İnnovasiya infrastrukturunu təşkil edən əsas elementlərdən biri İKT-profilli texnoparklardır. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya"da innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Texnoparkların əsas məqsədləri: innovativ məhsulların kommersiyalaşdırması; müvafiq sferada iqtisadi artımın stimullaşdırılması; elmi-texniki potensialdan istifadə intensivliyinin artırılması; regionun sosial-iqtisadi fəaliyyətinin səmərəliliyinin artırılması və s. (4, s. 71-72)

Bundan başqa, Elmin inkişafı üzrə Milli Strategiyada deyilir ki, Azərbaycan Respublikasında elmin informasiya təminatının inkişaf etdirilməsi üçün ölkə kitabxanalarının elmin müxtəlif sahələrinə aid ədəbiyyatla təmin olunmasının yaxşılaşdırılması, informasiya mübadiləsi üçün qabaqcıl telekommunikasiya infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarından, elektron jurnallardan, telekonfranslardan və s.-dən istifadənin inkişaf etdirilməsi, elmin müxtəlif sahələrində kompüter vasitəsilə sınaqların aparılması, fənlərarası yanaşma çərçivəsində elmi modellərdən və göstəricilərdən ibarət Milli İnformasiya Bankının təşkili, elmin təşkilini, idarə olunmasını və alınmış elmi nəticələrin tətbiqini gücləndirmək məqsədi ilə "elektron elm" modelinin hazırlanması və yeni informasiya texnologiyalarının tətbiqinə diqqət yetirilməlidir.

Bu istiqamətlərin həyata keçirilməsi sahəsində müxtəlif hüquqi, texniki və təşkilati tədbirlər müəyyənləşdirilmiş və hal-hazırda da icra olunmaqda davam edir. Məsələn, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" yuxarıda sadalanan bir neçə istiqamətin həyata keçirilməsi məqsədilə təsdiq edilmişdir.

Müasir dövrdə informasiya mədəniyyətinin aşağı səviyyədə olması informasiya sahəsində hüquqların realizəsində ən böyük maneələrdən biridir. Ona görə də İKT sahəsinin inkişaf hədəfləri nəzərə alınmaqla, sektorun tələbatına uyğun təhsilin müxtəlif səviyyələri üzrə yüksək ixtisaslı kadrların hazırlanması milli informasiya siyasətinin əsas istiqamətləri sırasında xüsusi çəkiyə malikdir.

## Nəticə

Milli informasiya məkanının formalaşdırılması istiqamətləri ayrı-ayrılıqda milli-mədəni irsin qorunub saxlanmasını əhatə edir. Lakin mədəni dəyərlərin bəşəriyyət üçün son dərəcə vacib olduğunu nəzərə alaraq, informasiya sahəsində milli informasiya siyasətinin ayrıca bir istiqaməti kimi milli kontentin inkişaf etdirilməsinə xüsusi önəm verilməlidir. Bu istiqamət eyni zamanda, Azərbaycan xalqının dünyada tanınmasına xidmət edir. Məsələn, 2014-2020-ci illər üçün Milli Strategiyada nəzərdə tutulan bəzi tədbirlər - Azərbaycan tarixi, vətənpərvərlik mövzuları, ədəbi və mədəni irs üzrə internet resurslarının (rəqəmli arxivlərin) yaradılması və inkişaf etdirilməsi, milli-mədəni nailiyyətlərə, yerli xalqların və milli azlıqların adət-ənənələrinə həsr olunmuş elektron resursların formalaşdırılması və s. milli-mədəni irsin qorunub saxlanmasında əvəzsiz rola malikdir.

## References

1. “National Strategy on Information and Communication Technologies for the Development of the Republic of Azerbaijan (2003-2012)” approved by the Order of the President of the Republic of Azerbaijan No. 1146 dated February 17, 2003 http://www.e-qanun.az / framework / 1969
2. Aliyev E.A. Architecture and segmentation model of the national information space. // Problems of information society, 2014, №2, p. 71-72.
3. Aliyev A.I., Rzayeva G.A., Ibrahimova A.N., Maharramov B.A., Mammadrzali Sh.S. Information Law: Textbook. Baku, 2019, 447 p.
4. Aliyev A.G., Shahverdiyeva R.O. Issues of comprehensive assessment of the effectiveness of ICT-technoparks. // Problems of information society, 2011, №2, p. 71-72.
5. Hüseynova İ. The end of the transition period in the economic sphere makes it necessary to develop Azerbaijan on a scientific basis. // Strategic analysis, Azerbaijan's domestic and foreign policy, analytical journal on international relations, 2011, № 1 (2), p. 129-130.

**Rəyçi: h.f.d A.İbrahimova**

Göndərilib: 15.04.2021 Qəbul edilib: 16.04.2021